

# ARİSTOKRATİK AZADLIQ

## YAXUD BİZ HANSI DEMOKRATİYADAN İMTİNA EDİRİK

***Loğman RƏŞİDZADƏ***

**(əvvəli ötən saylarımızda)**

**O dövrün hesabatlarında göstərilən rəqəmlərə inansaq, belə çıxır ki, Ağdam cəbhəsinə bir-iki ildə bütövlükdə Böyük Vətən müharibəsi dövründə işlənmiş silah-sursat qədər döyüş ləvazimatı gətirilmişdir. Elə o zaman, bu maxinasiyalar aparılan zaman paralel olaraq Ağdamın girəcəyində, "Uzundərə" deyilən yerdə rus ordusunun qoyub getdiyi böyük bir arsenal, külli miqdarda döyüş sursatı xəyanətkarcasına talan edilirdi.**

### *Başqa bir misal*

Səhv etmirəmsə, o zaman "SU" tipli qırıcı təyyarələrin qiyməti 12 milyon ABŞ dolları idi. Bir hərbçi dostum danışırdı ki, 2 ədəd "SU" aerodromda sağ-salamat ola-ola hesabatda onların Qarabağ səmasında vurulduğu göstərilirdi və guya yeniləri alınıb gətirilirdi. Beləcə, dövlətin budcəsindən 24 milyon ABŞ dolları oğurlanırdı. Bax, korrupsiya budur, özü də onun cinayətkar həddidir. Sonra da deyirlər Heydər Əliyev torpaq verdi...

Həmin işi siz, bu gün də uğurla davam etdirirsiniz - bəzi korrupsioner dövlət məmurları ilə əlbir. Korrupsiya oyununun bir patnyoru yüksək çinli bəzi dövlət məmurları, iqtidar aristokrasiyasının bir qrupudursa, digər tərəfdaşı sizsiniz, müxalifət aristokratları, sadə, ürəyiaçıq, zəhmətkeş xalqın inamıyla imitasiya edən, onların müqəddəs arzusundan suiistifadə edərək ikibaşlı oyuna qurşanan sizlərsiniz. Əli daim sizin cibinizdə olan bəzi iqtidar yetkililərinin səxavəti olmasaydı, siz yəqin ki, bu cür irimiqyaslı pullar tələb edən təmtəraqlı həyat tərzi yaşamaz, bər-bəzəkli karnavalları xatırladan seçkiqabağı şoular düzüb-qoşa bilməzdiniz. Heydər Əliyevin hesabına milyonlar talayıb (fərq etməz, hal-hazırda iqtidarda təmsil olunsun, yaxud vaxtilə işləyib çıxmış olsun), indi də sizi maliyyələşdirənlər təbii ki sabahkı gün üçün sizdən kompensasiya tələb edirlər. Təbii ki, siz də bir tərəfdən sizin arxanızca gedən aldanmış sadə xalqa, digər tərəfdən isə pulları və real dəstəkləri ilə hakimiyyətə gəlmək istədikləriniz, maliyyə mənbəyiniz olan satqın iqtidar yetkililərinə eyni şəkildə söz verirsiniz. Qəlbinizdə oyuncaq yerinə qoyub aldatdığınız hər iki zümrəyə yəqin ki, gülürsünüz. Çünki heç bir hökmdar onu hakimiyyətə gətirən qüvvələrin mövcudluğuna tab gətirə bilmir. Bəlkə, bu, korrupsiya deyil?! Alverlə, siyasi avantüra ilə hakimiyyətə gəlmək arzusuna nə ad vermək olar? Vallah-billah, bunun korrupsiyadan başqa bir adı yoxdur!

Müxalifətin iddialarına rəğmən, Azərbaycanda azad, demokratik, sivil bir vətəndaş cəmiyyətinə əsaslanan dövlət qurulub və bu gün də fəaliyyətdədir. Onun müəllifi Heydər Əliyevdir. Heydər Əliyev qısa müddətdə Azərbaycanı sivil demokratik dövlətə çevirdi. Demokratiya küçələrdə, meydanlarda çəpərdibi siyasi psixologiyadan fundamental, elmi konsepsiyaya çevrildi. Demokratik təsisatların formalaşdırılması ilk növbədə dayanıqlı sabit dövlət maşınının yaradılması və stabil bir vətəndaş cəmiyyətinin formalaşdırılması ilə son dərəcə sıx bağlıdır. Heydər Əliyev ilk növbədə bu sabitliyi yaratmağa nail oldu. Və sonradan ildırım surətilə, görünməmiş, fövqəladə bir ehtirasla demokratik təsisatlara rəvac verdi. O, bu işdə ləngiməməyə çalışırdı. Çünki demokratik dövlət quruculuğu təkcə daxili məzmun daşımır, iç problemləri, siyasi, ictimai, mədəni sferaları əhatə etmir, eyni zamanda düşünülmüş, sivil və etibarlı xarici siyasət xəttinin təməl prinsiplərini təşkil edir. Bu, Qərbə, bütün sivil və mədəni dünyaya inteqrasiya deməkdir, beynəlxalq aləmdə müəyyən sanbal və nüfuz əldə eləmək idi.

### *Heydər Əliyev*

**bu işlərə tələsik və kor-koranə rəvac vermədi. İctimai psixologiyaya, milli mentalitetə uyğun addımlar atıldı və bu proses cəmiyyətin inkişaf dinamikasına, kütlələrin, siyasi qüvvələrin və ictimai-siyasi proseslərin dialektikasına uyğunlaşdırıldı.**

Prezident bütün bu prosesləri ağılla, müdrikliklə, həm də sürətlə, permanent aparırdı. Bunun ən yüksək nöqtəsi isə 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuş, yeni Azərbaycan Konstitusiyasıdır. Başqa maddələri bir yana, onun demokratik vüsətini müəyyən etmək üçün təkcə bir cümlə kifayətdir: dövlət hakimiyyətinin yeganə mənbəyi xalqdır. Bu mənada dövlətimizin başçısının sözləri haqlı və qürurlu səslənir: "Azərbaycanda müxalifətdə olan partiyalar daim demokratiya haqqında danışırlar. Siz hələ Azərbaycan üçün bir iş görməmisiz. Azərbaycanda demokratiyanı yaradan, inkişaf etdirən biz, Azərbaycanda islahatları həyata keçirən biz, Azərbaycanı dünyada tanıdan biz, bütün azadlıqları verən biz, indi necə oldu ki, siz demokrat oldunuz, iqtidar və Yeni Azərbaycan Partiyası antidemokratik oldu?.. Azərbaycanda həqiqi demokratiya yaranıbdır, onu yaradan da Azərbaycanın iqtidarıdır, onun prezidentidir, Yeni Azərbaycan Partiyasıdır".

***

**Müxalifətin hərzə-hədyanlarının baş alıb getməsinin müxtəlif səbəbləri var. İlk növbədə onlara tutarlı cavab verilməlidir. Bu da təbliğatın qurulmasından, onun forma və məzmunundan çox asılıdır. Təbliğat və təsviqatın vüsət aldığı, ideoloji mübarizənin mövcud siyasi ovqatın məntiqinə çevrildiyi indiki mərhələdə bu məsələlərin təşkili qüsurlardan da xali deyil.**

### *Təcrübə göstərir ki,*

təbliğat işinin "dedim-dedi", "cavab-cavab" müstəvisində qurulması çox vaxt əks effekt verir, bəzən də bumeranqa çevrilib adevkat reaksiyalar doğurur. Bu gün rəsmi dövlət mətbuatı və iqtidaryönümlü qəzetlər öz fəaliyyətini daha çox müxalifətin ittihamlarını cavablandırmaq üzərində qurur. Bu da opponentin yedəyində getmək təsiri bağışlayır. Başqa heç nə lazım deyil, sadəcə Heydər Əliyevin üçüncü Respublika dövründə gördüyü işləri önə çəkmək, geniş kütləyə çatdırmaq lazımdır. Ən böyük təbliğat budur. Əməli fəaliyyəti ilə yanaşı, onun çıxışlarında, müsahibələrində, nəzəri görüşlərində bu təbliğatın konturları və tezisləri də açıq-aydın cızılmışdır. Sadəcə, bu nəzəri irsi dərindən öyrənmək lazımdır. Bu irsə lazımınca diqqət yetirməmək bizim hər birimizin böyük nöqsanıdır. Mən bu irsdən faydalanmağı müxalifətə də məsləhət görərdim. Oxuyun, öyrənin. Sadə məişət detallarından tutmuş dərin məzmunlu fəlsəfi söhbətlərədək, adi idarəçilik düşüncələrindən böyük dövlət quruculuğu konsepsiyalarına qədər hər şeyə bu zəngin, dərin məzmunlu, çoxşaxəli məxəzdə rast gələ bilərsiniz. Bütün bunlar Heydər Əliyevin siyasətimizə, iqtisadiyyatımıza, mədəniyyətimizə, mənəviyyatımıza verdiyi böyük töhfədir. Heydər Əliyev təkcə yaxın vaxtlarda dövlət quruculuğu sahəsində on illərin işini görüb. Düzdür, bu barədə kifayət qədər siyasi korrespondensiyalar, bədii-publisistik oçerklər qələmə alınıb, kitablar yazılıb. Bu irs dövlətçiliyimizin mahiyyətini və inkişaf istiqamətlərini əks etdirən elə bir təməl mövzudur ki, buna zaman-zaman qayıtmalıyıq, həmin müddəaları sistemli şəkildə təbliğatın əsas predmetinə çevrilməliyik.

Bu işlərə bizim müqtədir qələm sahiblərimizi, yazıçılarımızı, şairlərimizi, incəsənət xadimlərimizi intensiv şəkildə cəlb etmək lazımdır. Yalnız cəlb etməkmi? Hər bir insan həqiqət anında vətəndaş mövqeyini ortaya qoymalıdır. Bu, bir borcdur. Üstəlik, qələm sahibi üçün. Bəs bunu niyə görmürük? Deyək ki, ziyalıların müəyyən narazı qrupu bu gün açıq-açığına müxalifətin yanındadır. Bəs, təbir caizsə, iqtidaryönümlü ziyalılar haradadır? Müxtəlif mükafatlar, ödüllər, orden-medallar, fəxri adlar, prezident təqaüdü, övladuşaqlarına vəzifələr almaq lazım gələndə basabas salan bu qələm məddahları bu gün, məhz söz demək məqamı yetişəndə, mövqe nümayiş etdirmək lazım gələndə niyə qınlarına çəkilirlər? Bəlkə paqonlarını açıb qoyublar yerə, kimin hakimiyyətə gəlməsindən asılı olaraq hansı paqonu taxmaq barədə düşünürlər? Bəziləri də (beləleri ən çox da prezidentimizin yağlı süfrəsinin başında daimi yeri olanlardır) ayağını tərəzinin hər iki gözünə qoyur. "Yeni Müsavat" qəzetində səhifə-səhifə narazı şeirlərini çap elətdirəndən sonra, kompensasiya üçün, xalaxətrin qalmasın deyə, "Azərbaycan"a da siyasi kursu və ictimai motivi məlum olmayan bir-iki şeir ötürür. Təəssüf doğuran haldır.

### *Bu gün*

**müxalifət korrupsiyadan, baş alıb gedən məmur özbaşnalıqlarından, xalqın ağır güzaranından dəm vurur. Qeyd etdik ki, ideal cəmiyyət axtarmaq utopiyadan başqa bir şey deyil. Heç bir cəmiyyət özünəməxsus çətinliklərdən xali deyil. Üstəlik də, dövlət quruculuğu yoluna yenicə qədəm qoymuş ölkə ola. Yeni siyasi sistemin formalaşdırılması, dövlət idarəçilik təsisatlarının yaradılması, mülkiyyət formalarının dəyişdirilməsi, yeni tipli vətəndaş cəmiyyətinin qurulması - bütün bunların hər biri çoxsaylı problemlərlə izlənən məsələlərdir. Belə geniş miqyaslı quruculuq təbii ki, ağrı-acısız ötüşməyəcəkdir.**

Düzdür, korrupsiya da mövcuddur, məmur özbaşınalıqları da, ədalət əkilən yerdən bəzən ədalətsizlik göyərir, demokratiyanın pozulduğu, zəhmətkeş xalqın, sadə insanların əziyyət səkdiyi anlar da olur. Lakın bu istisnalar hər şeyi qara eynəkdən qiymətləndirməyə əsas vermir. Bəlkə, inkişaf eləmiş ölkələrdə belə problemlər yoxdur? Bomjlar, küçədə veyllənən işsiz-gücsüz səfillər, oğru - tülüngülər bəlkə bu gün Rusiya, ABŞ və başqa digər bu kimi ölkələr üçün problemə çevrilməyib? Müqayisədə bizdə vəziyyət əksər ölkələrdən qat-qat yaxşıdır. Başqa sözlə, bütün statistik məlumatlarda, sosioloji təhlillərdə keçmiş sovet respublikaları içərisində ən yüksək həyat tərzi yaşayan iki-üç respublikadan biri Azərbaycandır. Təbliğat işinin nöqsanlarından biri də budur: biz məhz bu tipli faktları təhlil süzgəcindən keçirib xalqa çatdıra bilmirik.

### *Bütün bunlar detallarla təhlil edilib*

xalqın şüuruna yeridilsə, inanın ki, müxalifətin hay-küyünə uyub onun arxasınca gedən, necə deyərlər, bir ovuc narazı kütlə də bundan imtina edəcəkdir. Hədislərin birində deyilir ki, hökmdar dəniz səyahətinə çıxır. Bu zaman dənizə öyrəşməyən təbələrindən birinin başı fırlanır, ürəyi bulanır, fəryad edən bu adam padşahın və ətrafdakıların istirahətini tam pozur. İşin tərsliyindən bu, padşahın ən sevimli xidmətçilərindən biri olur. Həkim hökmdara yanaşıb nəzakətlə bildirir ki, şah sağ olsun, icazə verin, onun səsini kəsim. Padşah razılıq verir, lakin tapşırır ki, onu çox da incitməyin. Həkim həmin adamı dənizə atdırır. Xidmətçi nəhəng dalğaların qoynunda bir-iki ümidsiz əl-qol atır və boğulan anda onu kəndirlə dartıb çıxarırlar. Elə buna bənd imiş. Bir küncə qısılıb quzu kimi kirimişcə oturur, cınqırını da çıxarmır. Xeyli keçəndən sonra sakitliyi görən hökmdar sevimli təəbəsini soruşur. Həkim əhvalatı danışır və sonda əlavə edir: "Şah sağ olsun, o dənizdəki fəlakəti görəndən sonra, gəmidəki sadəti dərk etdi". Ey mənim nəcib xalqım, sərnişini olduğumuz gəminin, başqa sözlə, vətəndaşı olduğumuz dövlətin, hər birimizin ağır əməyi və zəhməti ilə qurulmuş asudə, əmin-aman vətəndaş cəmiyyətimizin qədrini bilək. Bir də, unutmayaq ki, heç vaxt pisi itirib yaxşı tapmaq olmur.

**Bu məqamda yaxın tarixi-mizin bəzi ibrətamiz səhifələrini vərəqləsək yerinə düşərdi. Bu gün də yüksək kürsüyə iddialı olan müxalifət bir illik hakimiyyəti dövründə məhvərindən oynamış, problemlərlə dolu elə bir cəmiyyət və acı xatirə qoyub getmişdir ki, dövlət quruculuğunda həmin sindromlar bu gün də əngəllər yaratmaqdadır.**

**(ardı növbəti sayımızda)**